**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ARZU ƏLİSAKİT QIZI CƏBRAYILOVA**

# YENİYETMƏLƏRDƏ ƏXLAQİ HİSSLƏRİN İNKİŞAFININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

6104.01- Pedaqoji psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2017**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,əməkdar elm xadimi, professor **Əkbər Salman oğlu Bayramov**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru, əməkdar müəllim, professor **Ramiz İbrahim oğlu Əliyev**

psixologiya üzrə fəlsəfə doktoru **Ruhəngiz Mehman qızı Qarayeva**

Aparıcı təşkilat: Azərbaycan Dillər Univeristetinin **Psixologiya kafedrası**

Müdafiə "___" "_________" 2017-ci ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2017-ci ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

# İ Ş İ N  Ü M U M İ  S Ə C İ Y Y Ə S İ

**Mövzunun aktuallığı.** Sosial adaptasiyanın intensivliyinin sürətləndiyi və dinamik sosial gerçəklik şəraitində yeniyetmələrdə əxlaqi hisslərin formalaşması ilə bağlı cəmiyyətdə ciddi çətinliklər ortaya çıxır. Bu çətinliklər bir tərəfdən cəmiyyətə yeni dəyərlərin daxil olması ilə, digər tərəfdən isə əxlaqi və mənəvi təsəvvürlərin yeni şəraitə uyğun dəyişməsi ilə bağlıdır.

Əxlaqi hisslərin vacib elementlərindən olan dostluq, yoldaşlıq münasibətlərinin tərbiyəsinin əvvəlki dövrlərə nisbətən yeni məzmun kəsb etməsi onun müasir tələblər kontekstində nəzərdən keçirilməsinə ciddi zərurət yaradır. Başqa bir tərəfdən mövcud stereotiplərin dağılması və əxlaqi-mənəvi inkişaf haqqında sistemli yanaşmaların olmaması da bu problemin həllini aktuallaşdırır.

Bununla yanaşı yeniyetmələrdə əxlaqi hisslərin formalaşdırılması və onun psixoloji mexanizmlərinin ayırd edilməsi torpaqlarımızın bir hissəsinin işğalçı Ermənistan tərəfindən qəsb edilməsi şəraitində həyata keçirilir. Bu baxımdan vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi mənəvi və əxlaqi dəyərlərin tədqiqini diqqət mərkəzinə gətirir. Nəzərə almaq lazımdır ki, məhz yeniyetməlik yaş dövründə əxalqi normalar və hisslər haqqında təsəvvürlər yetkinləşir və interorizasiya olunur ki, belə həssas yaş dövründə onların inkişaf etdirilməsi cəmiyyət üçün yararlı vətəndaş yetişdirilməsi işinə ciddi töhvə ola bilər.

Əxlaqi davranışın formalaşması və cəmiyyətin əxlaqi münasibətlər sferasında bu davranışın təzahürü yeniyetmələrdə dəyərlər sisteminin adekvat istiqamətdə inkişaf etdirilməsindən qaynaqlanır. Məhz bu kontekstdə yeniyetmədə özündən kənardakılara qarşı əxlaqi emosional münasibətin təzahürləri olan simpatiya, antipatiya, rəğbət, nifrət və s. formalaşır.

Qeyd etmək lazımdır ki, müasir dövrün çətinlikləri yeniyetmələrin əxlaqi hissləri və emosional münasibətlər sferasına təsirsiz qalmır. Fərdin ontogenetik inkişafında, xüsusən də onun şəxsiyyət kimi formalaşmasında mühüm mərhələni təşkil edən yeniyetməlik dövründə yeniyetmənin mənəvi dünyasının təşəkkülünə ciddi təsir göstərən mühüm bir amil kimi əxlaqi hisslərin tədqiqi həm də təlim-tərbiyə prosesinin effektiv təşkilinə zəmin yarada bilər.

Faktlar göstərir ki, yeniyetmələrdə əxlaqi–emosional münasibətlərin xüsusiyyətlərinin, onun yeniyetmə həyatında rolunun, eyni zamanda yaş və fərdi xüsusiyyətlərdən asılılığının araşdırılması milli-etnik zəmində yeni-

yemələrin vətəndaşlıq ruhunda tərbiyəsi üçün zəruri olan yol və vasitələrin tapılmasına yardımçı ola bilər. Bu baxımdan problemin psixoloji mexanizmlərinin aşkarlanması respublikamızda böyüməkdə olan gənc nəsildə yüksək əxlaqi emosional münasibətlərin tərbiyəsi baxımından geniş imkanlar açır. Bu baxımdan da problem olduqca aktualdır.

**Mövzunun işlənmə səviyyəsi.** Problemin öyrənilməsinə yönəlmiş işlərin retrospektiv təhlili göstərir ki, əxlaqi hisslər, emosional münasibətlər problemi istər nəzəri, istərsə də praktik planda müxtəlif dövrlərdə və müxtəlif aspektlərdə tədqiqatçıların diqqətini cəlb etmişdir. Həm fəlsəfi, sosioloji, etnoqrafik, pedaqoji, həm də psixoloji planda problemlə bağlı ciddi araşdırmalar aparılmışdır. Xüsusən də XX yüzilliyin 60-cı illərindən başlayaraq qarşılıqlı münasibətlərin öyrənilməsinə xüsusi diqqət yetirilməyə başlanılmışdır.

Problem pedaqoji və yaş psixologiyası aspektində müxtəlif tədqiqatçılar (R.Zayens, S.Holl, K.Horni, J.Vatson, B.Skinner, C.Rocers, A.Maslou, J.Piaje, E.Xatfeld, Q.Vayt, L.Kolberq, A.B.Zaxarova, T.B.Draqunova, A.Q.Krakovskiy, S.L.Kolomskiy, Y.S.Kon, B.K.Vilyunas, E.P.İlin, L.Y.Qozman, L.S.Vıqotski, B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Həmzəyev, R.H.Qədirova, Ə.Ə.Qədirov, Z. H. Mehdizadə, M.V.Vəliyev, M.H.Mustafayev və b.) tərəfindən araşdırılmışdır. Bu tədqiqatlarda bir tərəfdən əxlaqi hisslərin, emosional münasibətlərin genezisi, strukturu, təzahür səviyyələri, inkişaf qanunauyğunluqları tədqiq olunur, digər tərəfdən isə dostluq münasibətlərinin tipləri, funksiyaları, motivləri, inkişaf qanunauyğunluqları, formalaşması şəraiti və mexanizmləri, eləcə də bu münasibətlərin determinantları araşdırılır.

Respublikamızda B.Əliyevin, Ə.Bayramovun, Ə.Əlizadənin, M.Həmzəyevin, R.Qədirovanın, K.Əliyevanın, R.Cabbarovun, N.Cavadovun və b. tədqiqatlarında yeniyetməlik yaşı dövründə oğlan və qızların özünüdərki, yaradıcılıq imkanları, identikliyi, ünsiyyəti, qarşılıqlı münasibətləri və s. məsələlər öz əksini tapmışdır. Bütün bu tədqiqatlara baxmayaraq həyat dəyişdikcə, cəmiyyət inkişaf etdikcə insanların bir–birilərinə qarşı münasibətləri də olduğu kimi qalmır. Şəxsiyyətin, xüsusən də yeniyetmələrin əxlaqi, mənəvi davranışı da inkişaf edir, yeni məziyyətlər kəsb edir. Bu kontekstdən də problem müasir dövr üçün aktuallıq kəsb edir.

**Tədqiqatın obyektini** yeniyetməlik yaş dövründə əxlaqi hisslər və emosional münasibətlər sistemi təşkil edir.

**Tədqiqatın predmeti** yeniyetmələrdə əxlaqi hisslərin, eləcə də onların qarşılıqlı münasibətlərində dostluq, yoldaşlıq hisslərinin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın məqsədi** yeniyetmələrdə əxlaqi hisslərin təzahürü kimi özünü göstərən dostluq və yoldaşlıq münasibətlərinin formalaşmasının psixoloji mexanizmlərini, qanunauyğunluqlarını müəyyən etmək və onların münasibətlərinə məqsədyönlü təsirin yol və vasitələrini aşkara çıxarmaqdan ibarətdir.

**Tədqiqatın metodoloji əsasları və metodikası.** Tədqiqatın metodoloji əsasını əxlaqi hisslərlə bağlı milli və ümumbəşəri dəyərlər, qarşılıqlı münasibətlərin psixopedaqoji konsepsiyası, görkəmli alim və pedaqoqların, psixoloqların emosional münasibətlərin təşəkkülü ilə bağlı ideya və fikirləri təşkil edir. Bununla yanaşı tədqiqatın konkret metodoloji əsasını əxlaqi şüurun inkişafına həsr olunmuş yanaşmalar təşkil edir. Tədqiqat zamanı müşahidə, anket, test, fəaliyyət nəticələrinin təhlili üsullarından, o cümlədən M.E.Murzakovanın "Siz necə dostsunuz?" metodikasından istifadə edilmişdir. Tədqiqat Bakı şəhərinin 183 №-li məktəbi, 287 saylı "Zəkalar" liseyi və Sumqayıt şəhərindəki "Təfəkkür" liseyində təhsil alan yeniyetmələrlə aparılmışdır.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

1. Tədqiq olunan problemlə bağlı müvafiq psixoloji və pedaqoji ədəbiyyatları təhlil etmək, problemin elmi–nəzəri və praktik qoyuluşu vəziyyətinin öyrənilməsi və ümumiləşdirilməsi.
2. Əxlaqi hisslər anlayışının mahiyyətinin, onların təşəkkül mexanizminin və xüsusiyyətlərinin, təzahür formalarının elmi–nəzəri planda təhlil edilməsi.
3. Əxlaqi hisslərin, emosional münasibətlərin yeniyetmələrin davranış və rəftarlarında, münasibətlər sistemində təzahür xüsusiyyətlərini və onlara təsir göstərən başlıca amillərin müəyyən edilməsi, dostluq, yoldaşlıq münasibətlərinin yeniyetmələrin mənəvi tərbiyəsində rolununun aşkarlanması.
4. Dostluq, yoldaşlıq münasibətlərinin yeniyetmələrdə adekvat təşəkkülünün, formalaşmasının və düzgün tərbiyə edilməsinin yol və vasitələrinin araşdırılması.
5. Tədqiqat nəticələrindən çıxış etməklə yeniyetmələrin qarşılıqlı münasibətlər sisteminə əxlaqi hisslərin, xüsusən də dostluq münasibətlərinin formalaşmasına təsirinə dair tövsiyələr vermək.

**Tədqiqatın fərziyyəsi.** Təşəkkül istiqaməti və məzmunundan, fərdin fəallıq səviyyəsindən asılı olaraq əxlaqi hisslər, emosional münasibətlər (dostluq, yoldaşlıq, rəğbət, nifrət və s.) bir şox hallarda yeniyetmələrin müəyyən mənəvi–psixoloji ehtiyacını ödəməklə yanaşı, onların rəftar və

davranışının, münasibətlər sisteminin xarakterinə və yönümünə müxtəlif səviyyələrdə təsir göstərə bilər.

Tədqiqatda iki əlavə **fərziyyə** də götürülmüşdür:

-Əxlaqi hisslər yeniyetmələrin davranışında özünü göstərən fərdi-psixoloji xüsusiyyətlərdən asılı olaraq formalaşır və onların mənəvi-əxlaqi keyfiyyətlərinə fərqli yönümdə təsir göstərir.

-Yeniyetmələrdə əxlaqi hisslərin, emosional münasibətlərin formalaşması onların yaş xüsusiyyətlərindən də asılı olaraq dəyişir.

**Tədqiqatın elmi yeniliyi.** Əvvəlki tədqiqatlardan fərqli olaraq bu tədqiqat işində yeniyetmələrdə əxlaqi hisslərin inkişafının psixoloji xüsusiyyətləri milli-etnik zəmində tədqiq olunmuş, yeniyetmələrin dostluq və yoldaşlıq münasibətlərində fərdi və yaş xüsusiyyətləri, əxlaqi hisslərin inkişafına təsir göstərən amillərin rolu araşdırılmışdır.

Bununla belə bu, tədqiqat işində:

- Əxlaqi hisslər anlayışının mahiyyəti müasir tələblər baxımından şərh edilmiş, tərbiyə prosesində onların əhəmiyyəti göstərilmişdir.
- Yeniyetmələrin davranış və rəftarında, münasibətlər sistemində əxlaqi hisslərin təzahür xüsusiyyətləri və əsas formaları müəyyən edilmişdir.
- Əxlaqi hisslərin təzahür səviyyəsi ilə yeniyetmələrin davranış və rəftarında, münasibətlər sistemində destruktiv hərəkətlərin nisbəti, asılılıq dərəcəsi müəyyən edilmişdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

- Şəxsiyyətlərarası emosional əlaqə və münasibətlərin yaranması və inkişafı fərdi- psixoloji xüsusiyyətlərdən asılıdır.
- Yeniyetmələrin qarşılıqlı emosional münasibətləri ünsiyyətlilik, yoldaşlıq, dostluq münasibətləri formalarında təzahür edir və bir–birindən psixoloji əsaslarına, genişliyinə, sabitliyinə və s. görə fərqlənir.
- Yeniyetməlik yaş dövründə istər oğlan, istərsə də qızlar arasında dostluğun möhkəmliyi, sabitliyi, ilk növbədə dostluğun məzmunundan, dostluq edən yeniyetmələrin qarşılıqlı münasibətlərindən, onların biri – birinə bağlılığından asılıdır.
- Yeniyetmələri yüksək emosional çalarlı münasibətlərə, yüksək əxlaqi xüsusiyyətlərə, qarşılıqlı əlaqə və münasibətlərə istiqamətləndirilmənin şərtləri ailə və məktəb münasibətlərinin daha təsirli sisteminin yaradılmasından asılıdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqat işində əxlaqi emosional münasibətlərin xüsusiyyətləri, yeniyetmələrin dostluq, yoldaşlıq tərbiyəsi probleminə sistemli yanaşmaqla onların mənəvi təkmilləşməsində belə qarşılıqlı münasibətlərin rolu və mövqeyi aşkar edilmişdir. Bu baxımdan

əldə olunmuş nəticələr pedaqoji psixologiyanı yeni elmi müddəalarla zənginləşdirməyə imkan verir və bu istiqamətdə elmi tədqiqatların aparılmasına şərait yaradır

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan əldə edilən nəticələr yalnız yeniyetmələrin deyil, ümumən böyüməkdə olan gənc nəslin qarşılıqlı münasibətlər sisteminin adekvat təşkilində və təkmilləşdirilməsində, istiqamətləndirilməsində geniş istifadə edilə bilər. Tədqiqatın nəticələrindən həm ali məktəblərdə pedaqoji psixologiyanın və seçmə fənlərin tədrisində də istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının seminarlarında, müxtəlif elmi konfranslardakı məruzə və çıxışlarda müzakirə edilmiş, dissertasiyanın əsas müddəaları, nəticə və tövsiyələri çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İ Ş İ N Ə S A S M Ə Z M U N U

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, işlənmə səviyyəsi haqqında məlumat verilir, tədqiqatın məqsəd və vəzifələri açıqlanır, elmi yeniliyi və müdafiəyə çıxarılan müddəalar əsaslandırılır, işin nəzəri və praktik əhəmiyyəti qeyd olunur, aprobasiyası göstərilir.

Dissertasiya işinin **"Yeniyetmələrdə əxlaqi hisslərin inkişafının psixoloji xüsusiyyətləri problemi psixoloji tədqiqatın obyekti kimi"** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiya işinin **"Yeniyetmə şəxsiyyətinin inkişaf xüsusiyyətləri və onun tədqiqi istiqamətləri"** adlanan birinci yarımfəslində həm yerli, həm də xarici ölkələrin tədqiqatçılarının yeniyetmə şəxsiyyəti, yaş və inkişaf xüsusiyyətləri haqqındakı fikirləri, problemə nəzəri baxışları, əxlaqi hisslərin öyrənilməsinə yönəlmiş tədqiqatlar təhlil olunmuşdur. Xüsusilə də yeniyetmələrdə əxlaqi hisslərin xüsusiyyətlərini öyrənərkən yeniyetmələrin yalnız psixoloji xüsusiyyətlərini deyil, həm də onun orqanizmində baş verən fizioloji, eləcə də bioloji və fiziki dəyişikliklərin öyrənilməsinin vacib olduğu vurğulanmışdır. Burada qeyd edilir ki, L.S.Vıqotskinin fikrincə, "yeniyetməlik yaşını hamı cinsi yetişmə yaşı adlandırır. Lakin bu yaş eyni zamanda şəxsiyyətin yetişməsi yaşıdır". Bu yarımfəsildə yeniyetmə şəxsiyyətinin formalaşması istiqamətləri saf-çürük edilir, uşaqlıqdan yaşlılığa keçid dövrünü şərtləndirən amillər şərh olunur, yeniyetmələrdə "mənlik" və "əxlaqi" şüurun

inkişafının qarşılıqlı əlaqəsi öyrənilir.

Dissertasiyanın **"Yeniyetmə şəxsiyyətində əxlaqi hisslərin ilkin təzahür formaları və təşəkkül istiqamətləri"** adlanan ikinci yarımfəslində əxlaqi hisslərin mahiyyəti və özünəməxsus xüsusiyyətləri araşdırılmışdır. Ayrı-ayrı müəlliflərin əxlaqi hisslər haqqında fikir və mülahizələri nəzərdən keçirilmiş və sistemləşdirilmişdir. Bu yarımfəsildə B.Clouse, J.Lockenin, J.Vatson, B.F.Skinner, K.Rocers, A.Maslou, J.Piaje, L.Kolberq, Q.Qorbunov kimi tədqiqatçıların əxlaqi hisslərin mahiyyəti ilə bağlı fikirləri araşdırılmışdır. Qeyd olunur ki, K.Rocers və A.Maslounun fikrincə, əxlaqi hisslər xarici mühitdən zorla təlqin edilməkdənsə, fərdin öz içindən gəldiyi zaman gerçəkləşir. Burada qeyd olunur ki, J.Piaje və L.Kolberq əxlaqi inkişafı yeniyetmənin digər xüsusiyyətləri ilə birlikdə inkiaf prosesində nəzərdən keçirmişlər. Əxlaqi keyfiyyətlərin irsi deyil, sonradan sosial modelləşdirmə, cəzalandırma, mükafatlandırma zəmnində formalaşan koqnitiv model olduğunu vurğulamışlar. Bununla yanaşı bu yarımfəsildə göstərilir ki, əxlaqi hisslər cəmiyyətdə hakim olan əxlaq normalarından qaynaqlanır, həmin normalar əxlaqi hisslərə təsir edir. Həmçinin qeyd edilir ki, əxlaqi hisslər insanın özünün və başqalarının davranışına olan emosional münasibətdir. Bu hisslərin dərinləşməsi isə cəmiyyətdə mövcud olan əxlaq normalarının, prinsiplərinin, davranış qaydalarının daha dərindən dərk edilməsini, onların təhlil edilərək rasional səviyyədə şüurlu surətdə qiymətləndirilməsini tələb edir. Buradan belə bir nəticəyə gəlmək olar ki, yeniyetməlik yaş dövründə əxlaqi hisslərin inkişafı daha çox əxlaqi şüurun inkişaf səviyyəsi ilə şərtlənmiş olur.

Dissertasiyanın **"Yeniyetmə şəxsiyyətində əxlaqi hisslərin öyrənilməsinin yol və vasitələri"** adlanan üçüncü yarımfəslində əxlaqi hisslərin öyrənilməsi zamanı tərbiyə prosesinin effektli təşkilinə xüsusi diqqət yetirilməsinin vacibliyi daha çox vurğulanmışdır. Qeyd edilmişdir ki, tərbiyə prosesi müəyyən olunmuş məqsədlərdən başlayır. Əxlaqi hisslərin daha intensiv şəkildə formalaşdığı yeniyetməlik yaş dövründə mənimsəmiş olduqları davranış normaları onların hərəkətlərinə daha çox rəhbərlik edir. Lakin nəzərə alınması vacibdir ki, yeniyetmə davranışında sözlə iş və hiss heç də həmişə uyğun gəlmir. Yeniyetmənin əxlaqi davranışı ətraf insanlar tərəfindən yetərincə qiymətləndirilməməsi də müsbət əxlaqi hisslərin inkişafına mənfi təsir göstərir. Ona görə də valideynlər uşağın yalnız uğursuzluqlarını deyil, müsbət keyfiyyətlərini də dəstəkləyərlərsə, bu uşağın özünü müsbət qiymətləndirməsi üçün əsas ola bilər. Bütün bunlarla yanaşı bu yarımfəsildə əxlaqi hisslərin öyrənilməsi ilə bağlı bir sıra müxtəlif yol və vasitələr araşdırılmış, dostluq fərdi inkişafın göstəricisi və funksiyası

aspektində tədqiq edilmişdir. Bu yarımfəsildə əxlaqi hisslərin, dostluq münasibətlərinin öyrənilməsinin yol və vasitəsi kimi xüsusi tərtib olunmuş anket sorğularının, müşahidə, müsahibə, test üsullarının da istifadəsinin əlverişli vasitə olduğu qeyd edilmişdir.

Dissertasiyanın **"Yeniyetmələrin emosional etik qarşılıqlı münasibətlərinin əxlaqi hisslərin təzahüründə rolu"** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. **"Yeniyetmələrdə əxlaqi hisslərin təzahüründə emosional münasibətlərin rolu"** adlı birinci yarımfəsildə emosional münasibətlər aydınlaşdırılmış, müxtəlif tədqiqatlarda bu məsələnin şərhi aydınlaşdırılmışdır. Burada qeyd edilir ki, emosional münasibətlər yarandığı kimi inkişaf edə, dəyişə, dərinləşə və pozula bilər. Deməli tərəflər nə qədər çox ünsiyyətdə olarsa, o qədər tez emosional əlaqə və münasibət yaranar. Qeyd olunur ki, emosional münasibətin yaranması bir sıra səbəblərdən – obyektin görünüşü, statusu, obyektin davranışı, şəxsin özünü təqdimetmə xüsusiyyəti və s. asılıdır. Bu yarımfəsildə emosional münasibətlər zəmnində şəxsiyyətlərarası münasibətlərin (bağlılıq, dostluq, məhəbbət, rəqabət, aqressivlik, düşmənçilik, əməkdaşlıq və s.) təhlili aparılmış, birgə fəaliyyət və ünsiyyət prosesində insanlar arasında yaşanılan əlaqələrin mexanizmləri sistemləşdirilmişdir. Qeyd olunur ki, yeniyetmələrdə şəxsiyyətlərarası emosional əlaqə və münasibətlərin yaranması və inkişafının yeniyetmələrin fərdi-psixoloji xüsusiyyətlərindən asılı olaraq dəyişilir.

Dissertasiyanın II fəslinin ikinci yarımfəsli **"Yeniyetmələrin etik qarşılıqlı münasibətləri və onların təzahür xüsusiyyətləri"** adlanır. Bu yarımfəsildə etik qarşılıqlı münasibətlər təhlil edilmiş, dostluq münasibəti əxlaqi hissin təzahür forması kimi dəyərləndirilmşdir. Nəzərə almaq lazımdır ki, yeniyetmələrin qarşılıqlı münasibəti ünsiyyətlilik, yoldaşlıq, dostluq formasında təzahür edir. Qeyd edilir ki, ünsiyyət prosesində yeniyetmənin ünsiyyət bacarığı, başqalarını dinləmək bacarığı və başqa kommunikativ bacarıqları inkişaf edir. Yaxşı yoldaşlıq münasibətləri yalnız nəzakətli ünsiyyətlilik sayəsində möhkəmlənməsi mümkündür və təlim fəaliyyəti ilə məhdudlaşmayan yoldaşlıq hissi ünsiyyətliliyə nəzərən daha dərin hiss olaraq yeniyetmələrin özünütərbiyəsinin inkişafında mühüm rol oynayır. Bu yarımfəsildə dostluq hissinin yoldaşlıq münasibətinin dərinləşməsi nəticəsində yarandığı, seçici xarakter daşıdığı qeyd edilmiş və yoldaşlıq münasibətinin təhlili aparılmışdır.

Dissertasiyanın II fəslinin üçüncü yarımfəsli **"Yeniyetmələrdə dostluq münasibəti əxlaqi münasibətin forması kimi"** adlanır. Bu yarımfəsldə yoldaşlıq və dostluq münasibətlərinin yaranmasında əxlaqi hisslərin (simpatiya, səmimiyyət, dürüstlük, düzgünlük, halallıq və s.) rolu

təhlil edilir, dostluq münasibətləri əxlaqi münasibətin forması kimi qiymətləndirilir. Mövzu ilə bağlı keçirilən sorğulardan çıxış edərək dostluq anlayışına yeniyetmələrin münasibəti göstərilmişdir. Dostların ünsiyyətinin özünəməxsus xüsusiyyətləri olduğu, bu xüsusiyyətlərin dostların fərdi xüsusiyyətləri ilə, onları dostluğa təhrik edən motivlərin məzmunu ilə şərtləndiyi aşkar olunmuşdur. Bu yarımfəsildə dostluq münasibətinin əksi olan variantlarına da toxunulmuşdur. Xüsusilə tənhalıq hissi keçirən yeniyetmələrin mənəvi-psixoloji xüsusiyyətləri araşdırılmışdır. Bu yarımfəsildə belə bir nəticəyə gəlmək olar ki, yeniyetmələrin dostluq haqqında təsəvvürləri sistemli xarakter daşıyır və onların fəaliyyətinin əsasında dayanır.

Dissertasiyanın **"Əxlaqi münasibət forması kimi dostluq münasibətinin yaranması və formalaşması xüsusiyyətləri"** adlanan III fəslinin birinci yarımfəsli **"Yeniyetmələrdə dostluq münasibətinin yaranması və formalaşması xüsusiyyətləri"** adlanır. Bu yarımfəsildə yeniyetmə şəxsiyyətinin inkişafında onun tələbat – motivasiya sahəsində baş verən dəyişikliklər araşdırılmış, dostluq münasibətlərinə söykənən ünsiyyətə tələbatının artaması qeyd olunmuşdur. Pozitiv şəxsiyyətlərarası münasibət kimi dostluq hissi də yeniyetməlik yaş dövründə fərqli anlam kəsb edir və özünü daha çox qarşılıqlı səmimilik, inam, maraqlar, biri digərinə kömək göstərməyə daim hazır olmaq formasında təzahür etdirir. Qarşılıqlı simpatiya yeniyetmələrdə önəmli səciyyə daşıyır. Bu da xüsusilə yuxarı yeniyetməlik yaşına keçdikcə mənəvi-əxlaqi qiymətləndirmə etalonlarında dərinləşmə, genişlənmə və differensasiyada özünü göstərir. Bu yarımfəsildə həmçinin yeniyetmə oğlan və qızların dostluq münasibətlərinin formalaşmasında özünü göstərən fərqli xüsusiyyətlər də diqqət mərkəzinə gətirilmişdir. Bununla yanaşı dostluq münasibətlərinin pozulmasına səbəb olan amillər sistemləşdirilmişdir.

Dissertasiyanın III fəslinin ikinci yarımfəsli **"Yeniyetmələrin dostluq və dostun şəxsiyyəti haqqında təsəvvürləri"** adlanır. Bu yarımfəsildə daha çox emprik tədqiqatdan alınan materialların təhlili və nəticələrin mənalandırılmasından ibarət olsa da, yarımfəslin əvvəlində mövzuya aid nəzəri əsas verilmişdir. Dostluğun yaş xüsusiyyətlərinə genetik olaraq yanaşılması məqsədəuyğun hesab edilmişdir. Tədqiqata Xətai rayonunun 287 saylı "Zəkalar" liseyində, Sumqayıt şəhərindəki "Təfəkkür" liseyində oxuyan yeniyetmə şagirdlər cəlb olunmuşdur. Tədqiqata ümumilikdə 325 şagird cəlb olunmuşdur.

M.E.Murzakovanın "Siz necə dostsunuz?" metodikası əsasında suallara verdikləri cavab variantlarının təhlili yeniyetmələri müxtəlif mövqeylər üzrə

qruplaşdırmağa imkan verdi. Apardığımız anket sorğusunda qoyulmuş "Dostunuz varmı?" sualına müxtəlif yaşlı yeniyetmələrin cavablarının nəticələrinə əsasən 11 yaşlı yeniyetmələrin hamısı (100%), 12 yaşlıların 96,3%- i, 13- yaşlıların 92,2, 14 yaşlıların 90%- i, 15 yaşlıların isə 80%- i dostunun olduğunu qeyd edir.




*Şəkil 3.1. 11-15 yaşlı yeniyetmələrin dostunuz varmı? sualına verdikləri cavabın nəticələri*

Şəkil 3.1.- dən göründüyü kimi, yaş artdıqca dostu olanların faiz nisbətində azalmaya doğru dəyişmə tendensiyası müşahidə olunur. Bu isə ona dəlalət edir ki, dostluq anlayışının özü ilə bağlı təsəvvürlərdə müəyyən dəyişiklik baş verir və anlayış məzmun baxımdan artıq aşağı yaşlarda olduğu kimi diffuz xarakter daşımır.

Bu yaşlı yeniyetmələr dostluğun həqiqi dəyərini dərk etməyə, dostluq münasibətlərini ümumi yoldaşlıq münasibətlərindən ayırmağa başlayırlar. Bu fikri yeniyetmələrin aşağıdakı sözləri tamamilə təsdiq edir. "İnsan özünü dostsuz pis hiss edir", "Həyatı dostsuz düşünmək olmaz", "Dostluq insanın ən dəyərli zinətidir", "Dostsuz yaşamaq olmaz" və s. Bu deyilənlər keçirdiyimiz anket sorğusunun "Dost dedikdə nə başa düşürsünüz?" - deyə müraciət etdiyimiz suala verilən cavablar əsasında alınan nəticələrdəndir.

Burada qeyd edilənlərə aydınlıq gətirmək üçün müxtəlif yaşlı

yeniyetmələrin anket sorğusunda qoyulmuş "Nə üçün onunla dostluq edirsiniz? "suala verdikləri cavablardan bir neçə nümunəyə diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

S.X. (11yaş) : "Vaxt keçirmək üçün və harasa gedəndə tək getməmək üçün".

A.N. (11 yaş ): "Çünki, mən onların yanında özümü çox rahat hiss edirəm, lazım gəlsə sirrlərimi də deyirəm ".

Y.N. (11 yaş ): "Çünki, onlarla mənim xasiyyətim tutur. Həm də mən özümü pis hiss edəndə onlar həmişə yanımda olur ".

C.S. (12 yaş ): "Çünki, onlar mənə qarşı çox dürüstdürlər və heç vaxt məni incitmirlər".

S. Z. (12 yaş ): "Çünki, mənə dar günümdə məsləhət verir ".

Ə. F. ( 14 yaş ): "O, çox etibarlı, sadiq və qayğıkeşdir. Mən onu, o da məni başa düşürük ".

H.J. (14 yaş ): "Fikirlərimiz üst – üstə düşdüyü üçün ".

Y.V. (15 yaş ) : "Sadiqdir, məni başa düşür, dinləyir, məsləhət verir".

B.S. (15 yaş ): "Çünki bir-birimizi başa düşürük. Problemlərimizi asanlıqla bir - birimizə deyə bilirik . "

Burada gətirdiyimiz cavab nümunələrindən də aydın olur ki, yaş artdıqca qismən də olsa daxili həyatın birliyinə tələblərdə dinamika özünü göstərir. Əgər aşağı yaşlarda dostluğa bir yerdə olmaq, darıxmaq, dar gündə məsləhət vermək və s. təlabatlarını ödəmək obyekti kimi baxılırsa, nisbətən yuxarı yaşlarda daha çox bir- birini anlamaq, başa düşmək və s. kimi daxili həyatın birliyinə təlabatı əks etdirən məqamlar ön plana keçir.

Deməli dostluğa aid edilən keyfiyyətlərin yaş artdıqca dəyişməsi tendensiyası xətti deyil. Yəni eyni bir keyfiyyət bir yaşda daha önəmli olduğu halda, digər yaşda bir qədər arxa plana keçir və sonrakı yaşda yenidən daha əhəmiyyətli xarakter alır. Bu şübhəsiz ki, bir tərəfdən yeniyetmələrin ziddiyyətlərə çox həssas olması ilə bağlıdırsa, digər tərəfdən onların yaş artdıqca ünsiyyət dairəsinin genişlənməsi, müxtəlif situasiyalarla rastlaşması və həmin situasiyalardan əldə etdiyi təcrübə və ondan çıxarılan nəticələrin xarakteri ilə əlaqədardır. Apardığımız tədqiqatdan da aydın olur ki, yaş artdıqca bağlılıq münasibətlərində seçiciliyin çəkisi artır və situativ təsirlərdən azad olaraq daha davamlı xarakter daşıyır.

Hansı yaş səviyyəsində dostunuz olmasını istəyərdiniz? - deyə müraciət etdiyimiz suala cavablar da maraqlı nəticələr əldə etməyə imkan verdi. Anket sorğusunda verilən bu suala konkret cavab olaraq sizdən böyük, sizdən kiçik, öz yaşıdın? variantları təklif olundu. Hesablamalar nəticəsində dostluğun yaşa görə dəyişmə dərəcələri üzə çıxarıldı




*Şəkil 3.2. Yeniyetmələrin hansı yaşdan olan insanlarla dostluq münasibətlərinin göstəriciləri*

Nəticələrin təhlilindən məlum oldu ki, 11yaşlı yeniyetmələrin 73% - i özündən böyük şəxslərlə dostluq etmək istədikləri halda, 27% - i isə fərqi yoxdur deyə cavab vermişdilər. 12 yaşlı yeniyetmələrin 69% - i öz yaşıdım cavabını seçsələr də, 31% - i fərqi yoxdur deyə cavablandırmışdılar. 13 yaşlıların 97% - i öz yaşıdlarını seçdikləri halda, 3% - i özündən kiçiklə dostluq etməyə üstünlük vermişdilər. 14 yaşlıların 71% - i öz yaşıdı, 29%- i isə özündən böyük, 15 yaşlı yeniyetmələrin 22% - i öz yaşıdı, 78% - i isə özündən böyük şəxslərlə dost olmaq istədiklərini bildirmişlər. Burada 11 yaşlı yeniyetmələrin çoxunun özündən böyükləri dost obyekti seçmələrinin səbəbini onların dostluq anlayışını hələ tam, düzgün başa düşməmələri ilə izah olunur. 11-12 yaşlı yeniyetmələrin əksəriyyətinin verdiyi cavablara diqqət etsək görərik ki, onlar hansı yaş səviyyəsində dostları olmasının fərqi yoxdur cavabını vermişlər. Bu da bir daha dostluq münasibətinin kiçik yaşlı yeniyetmələr üçün situativ xarakter daşıdığı və dostluğun xarici tərəfinə fikir vermələrini təsdiqləyir.

Anket sorğusunun digər bir cavabı maraq doğuran sualı "Dostunuzda hansı keyfiyyəti görmək istəyərdiniz?" kimi qoyulmuşdu. Belə ki, 11-15 yaşlı yeniyetmələrə təklif olunan anket sorğusunda (sorğuda hər yaşdan 50

nəfər olmaqla, ümumilikdə 150 nəfər yeniyetmənin cavabları təhlil edilmişdi) qoyulan bu suala verilən cavablar bu cəhəti özündə ehtiva edir. Cavabların təhlili göstərdi ki, 11 yaşlı yeniyetmələrin 54%- i, 12 yaşlıların 16%- i, 13 yaşlıların 12%-i, 14 yaşlıların 10%-i, 15 yaşlıların isə 8% - i öz dostlarında onların görmək istədikləri keyfiyyətlərin hamısı var deyə cavablandırmışlar.




*Şəkil 3.3.Yeniyetmələrin dostlarında görmək istıədikləri keyfiyyət göstəricilərinin yaş dinamikası*

Şəkil 3.3.- dən göründüyü kimi yaş artdıqca dostunda olan keyfiyyətlərə seçici münasibətin formalaşması prosesi baş verir və ona görə də dostunun heç də bütün keyfiyyətləri uşağın onda görmək istədiyi keyfiyyətlər deyil. Təsadüfi deyil ki, xeyirxahlıq, ürəyiyumşaqlıq, tərbiyəlilik, sirrsaxlayanlılıq və s kimi keyfiyyətlər 11 yaşlı yeniyetmələrin dostlarında görmək istədikləri xüsusiyyətlər olsa da, 12 yaşlı yeniyetmələrin cavabında nisbətən başqa qəbildən olan keyfiyyətlər, xüsusən də əliaçıqlıq, dürüstlük, cəsarətlilik, səmimilik və s. kimi keyfiyyətlər daha ön plana çəkilir.

14–15 yaşlı yeniyetmələrin cavablarında isə aşağı yaşlarda sadalanan keyfiyyətlərin bir qismi istisna olmaqla, nisbətən yeni daha dərin məzmun kəsb edən keyfiyyətlər, xüsusən də vicdanlılıq, geniş dünyagörüşlülük, səhvi bağışlamaq kimi keyfiyyətlər önəmli yer tutur.

Nisbətən oxşar mənzərə anket sorğusunda qoyulan həmin sualın ikinci hissəsinə (dostunuzda hansı keyfiyyətləri görmək istəməzdiniz?) verilən cavablarda da müşahidə olunur. Sorğuda iştirak edən müxtəlif yaşlı yeniyetmələrin cavablarının əksəriyyətində yaşdan asılı olmayaraq arzu olunmayan keyfiyyətlər sırasında daha çox paxıllıq, yalançılıq, satqınlıq kimi keyfiyyətlər önəmli yer tutur. Bununla belə nisbətən yuxarı yaşlarda,

xüsusən də 15 - yaşında olan yeniyetmələrin cavablarında aşağı yaşlarda adı çəkilməyən bir sıra başqa keyfiyyətlər də arzu olunmayan keyfiyyətlər sırasına daxil edilir. Belə keyfiyyətlər sırasında onlar ikiüzlülüyü, iradəsizliyi, mədəniyyətsizliyi, qısqanclığı və s. qeyd etmək olar. Görünür yaş artdıqca yeniyetmənin üstünlük verdiyi keyfiyyətlərdə və eləcə də maraqlarında müəyyən sabitləşmə prosesi gedir ki, bu da öz növbəsində onun qiymət meyarlarında dəyişikliyə səbəb olur. Digər tərəfdən bu həm də yaş artdıqca uşağın özünün emosional vəziyyətlərini və ümumiyyətlə öz "Mən" - ini daha yaxşı dərk etməsi ilə bağlı ola bilər. Tədqiqat zamanı diqqət çəkən məqamlardan biri də Azərbaycanlı yeniyetmələrin dostluqla bağlı təsəvvürləri, onların bir dost kimi hansı qiymətləndirmə dərəcəsinə uyğun gəlmələrinin müəyyən edilməsi ilə əlaqədar olmuşdur.

Məsələyə daha da aydınlıq gətirmək məqsədilə test – sorğusundan istifadə etdik. Test sorğunun tətbiqindən alınan nəticələr aşağıdakı cədvəldə verilmişdir. Test-sorğuda yeniyetmələrə müxtəlif suallar və onlara müxtəlif cavab variantları təqdim olunur. Cavab variantlarının hər biri müvafiq balla qiymətləndirilir və toplanan ballarının cəminə görə sorğuda iştirak edənin necə dost olduğuna aydınlıq gətirilir. Sorğuda hər yaş qrupundan 50 nəfər olmaqla, ümumilikdə 150 nəfər yeniyetmə iştirak etmişdir.

*"Siz necə dostsunuz?" test - sorğusunun nəticələrinin yaş qruplarına görə təhlili*

*Cədvəl 3.1.*

| **nəticələr yaş qrupları** | **0-70** | **75-140** | **145-215** | **220-280** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **11-12** | - | - | 95,2% | 4,8% | 100% |
| **13-14** | - | 8,3% | 88,9% | 2,8% | 100% |
| **15-16** | - | 12,2% | 82,9% | 4,9% | 100% |

Cədvəldən göründüyü kimi yaşından asılı olmayaraq müxtəlif yaş qruplardan olan yeniyetmələrin əksəriyyəti "Siz necə dostsunuz?" test - sorğunun nəticələrinə görə 0-280 ballıq şkalanın 145-215 ballıq intervalında yer almışlar. Həmin intervalda yer alan şəxslər isə ən yaxşı dost kimi xarakterizə olunur. Həm də onların dostları da bilir ki, bu şəxslərə hər an arxalana bilərlər. Belə şəxslərin dostluq münasibətləri vaxtın gözlənilməsini tələb edən iki tərəfli hərəkəti olan küçəyə bənzədilir.

Şübhəsiz ki, bütün yaş qruplarından olan yeniyetmələrin əksəriyyətinin qeyd olunan intervalda yer alması yaxşı dost olmağın

Azərbaycanlı yeniyetmələrin tipik əlaməti olmasından xəbər verir. Heç şübhəsiz ki, nəticənin belə alınması həm ailədə, həm də müxtəlif təlim-tərbiyə müəsisələrində aşılanan tərbiyə ilə, eləcə Azərbaycan xalqının milli xüsusiyyətləri ilə əlaqədardır. Digər tərəfdən belə bir fakt çoxdan məlumdur ki, qayğıkeş ailə və uşağın ana ilə emosional yaxınlığı onun sonrakı yaşlarda həmyaşıdları ilə yaxşı münasibətlər qurmasını asanlaşdırır .

14-15 və 15-16 yaş qruplardan olan yeniyetmələrin çox az bir hissəsi 75-140. Hər üç yaş qrupundan olan yeniyetmələrin isə cüzi bir hissəsi 220-280 intervallarında yer almışlar. Test - sorğunun nəticələrinin inteqrasiyasında 75-140 intervalında yer alan şəxslər çox da pis olmayan dost kimi xarakterizə olunur. Lakin bu şəxslər dostları ilə maraqları toqquşanda eqoistlik göstərirlər. Bu şəxslərə tövsiyə olunur ki, özlərini dostlarının yerinə qoysunlar, güzəştə getsinlər, lazımi anda onlara dəstək olsunlar və özlərini dostları üçün qurban verməyə hazır olsunlar. Əks təqdirdə dostluqdan danışmaları qeyri mümkündür.

Axırıncı intervalda yer alan şəxslər isə özlərini ən yaxşı dost hesab edənlər kimi xarakterizə olunur. Əslində isə belə olmadığı və onların dostluq münasibətlərində qarşılıqlı anlamanın çatmadığı qeyd olunur. Belə şəxslərdən dostları bir şey xahiş etdiyi zaman çox dərinə getdikləri, dostlarına heç bir şeydə etiraz etmədikləri vurğulanır. Tövsiyə olunur ki, bəzi hadisələrdə imtina etməyi öyrənsinlər. Doğrudur, bu zaman bir neçə dostdan məhrum olmaq olar, amma əvəzində insanlarla münasibətlər möhkəmlənə bilər .

Tədqiqatdan alınan nəticələr axırıncı qəbildən olan şəxslərin çox az sayda olduğunu göstərdiyindən bu əlamətin Azərbaycanlı yeniyetmələr üçün tipik deyil, təsadüfi əlamət xarakteri kəsb etdiyinə dəlalət edir. Bu səbəbdən həmin intervallarda yer alınmasının səbəblərini araşdırmağı luzum görmədik. Ümumiyyətlə, burada qeyd edilənləri yekunlaşdıraraq bir neçə istiqamətdə ümumiləşdirmə aparmaq olar .

Məsələyə yaş və cins aspektindəki fərqləri aşkar etmək istiqamətində aydınlıq gətirmək üçün 16-17 yaş qrupunu da əlavə etməklə üç yaş qrupunda 11-12, 14-15, 16-17 (ümumilikdə 150 nəfər) “Siz necə dostsunuz?” adlı test sorğusunda qoyulmuş suala verilən cavabların təhlilini aparmağı məqsədəuyğun hesab etdik.

Sual belə idi: “Özünüzün ən yaxşı dostunuzu xatırlayın. Aşağıdakı keyfiyyətlərdən hansını ona aid edərdiniz?”: etibarlılıq, həmrəylik, həssaslıq, sadiqlik, mehribanlıq.

Ən yaxşı dosta aid edilən keyfiyyətlərin cinsə və yaşa görə müqayisəli təhlili nəticələr %-lə verilmişdir.

*Cədvəl 3.2.*

| Yaş qrupu | 11-12 | | 14-15 | | 16-17 | |
|---|---|---|---|---|---|---|
| Cins / keyfiyyət | oğlan | qız | Oğlan | Qız | Oğlan | Qız |
| Etibarlılıq | 25% | 50% | 31.2% | 56.2% | 60.9% | 41.6% |
| Həssaslıq | - | - | 6.3% | - | 4.3% | 16.7% |
| Həmrəylik | - | - | 6.3% | - | 4.3% | 8.3% |
| Sadiqlik | 37.5% | 16.7% | 37.5% | 31.2% | 17.4% | 16.7% |
| Mehribanlıq | 37.5% | 33.3% | 18.7% | 12.6% | 13.1% | 16.7% |
| Cəmi | 100% | 100% | 100% | 100% | 100% | 100% |

Cədvəldən göründüyü kimi 11-12 yaş qrupunda hər iki cinsdən olan yeniyetmələr digər keyfiyyətlərdən fərqli olaraq ən yaxşı dostlarına mehribanlıq keyfiyyətini aid edirlər. Bu isə təsadüfi deyil. Çünki hər hansı birgə fəaliyyətin nisbətən uzunmüddətli olması məhz bu keyfiyyətlə bağlı olur. Uşaqlar isə adətən vaxtlarının çox hissəsini yaxın, dost hesab etdikləri tərəfdaşları ilə keçirməkdə maraqlı olurlar. Lakin sonrakı yaşlarda bu keyfiyyətin çəkisinin azaldığı aydın olur. Yəni yuxarı yaşlarda dosta verilən tələblər də çoxalır və biri digərini anlamaq, duymaq, fikirlərini bölüşə bilmək və s. kimi məsələlər ön plana çəkilir. Bunun nəticəsi olaraq, həmin tələblərə cavab verə biləcək dostun olmasına üstünlük verilir.

Cədvəldən görünür ki, 16-17 yaş qrupundan olan qızlar həmin qrupdan olan oğlanlardan fərqli olaraq dostunda etibarlılıq keyfiyyətinin

olması ilə bərabər onun həssas olması tələbini də irəli sürürlər. Bu şübhəsiz ki, bir sıra səbəblərdən qaynaqlanır.

Əvvəla, bir sıra psixoloqların da qeyd etdiyi kimi uşağın digər insanları qavramaq və qiymətləndirmək qabiliyyəti 7 və 10 yaş aralığında daha surətlə dəyişiklikliyə, irəliləyişə məruz qalır. Bu zaman o digər insanların fikirlərinə, hisslərinə, şəxsiyyət keyfiyyətlərinə və ümumu davranış meyillərinə münasibətdə nəticə çıxarmağı öyrənir. Bu isə sonrakı yaşlarda uşağın dostlarına və digər insanlara münasibətdə əhəmiyyətli ola biləcək keyfiyyətlərin vaciblik dərəcəsində fərqli yanaşmaya səbəb olmaya bilməz.

Təsadüfi deyil ki, məhz bu əsasdan qaynaqlanan mövqeyin nəticəsi kimi 12 - 16 yaşlarda ümumiləşmiş model və təsəvvürlər əmələ gəlir. Şəxsiyyətin implist nəzəriyyəsi adlandırılan nəzəriyyədə irəli sürülən bu ideya faktiki olaraq özünü doğruldur. Daha doğrusu, burada insanı davranış terminlərində qavramaq və qiymətləndirməkdən onun daxili psixi vəziyyətini, sonra isə şəxsiyyətin bütövlüyünü anlamağa qanunauyğun keçid baş verir. Buna müvafiq olaraq uşağın dostluq və dostluq münasibətləri haqqında təsəvvürləri dəyişir. Digər bir məqam qızların özlərinin təbiəti ilə bağlıdır. Belə ki, onlar oğlanlarla müqaisədə emosional ünsiyyətə daha çox meyilli olurlar. Bu da onların daha həssas olmasını şərtləndirməklə, başqalarında da bu keyfiyyətə üstünlük vermələri üçün əsas olur.




*Şəkil 3.4. Yeniyetmələrin sinif yoldaşlarından onun necə dost olması ilə bağlı gözləntilərinin göstəriciləri*

Bir yerdə oxuduğunuz yoldaşlarınız belə hesab edirmi ki, siz necə

dostsunuz? Bu suala verilən cavabla yeniyetmənin özü haqda düşüncəsini öyrənməyə çalışdıq. Nəticələr şəkil 3.4 –də öz əksini tapmışdır.

Bir yerdə oxuduğunuz sinif yoldaşlarınız belə hesab edir ki.....

a) Siz əsl dostsunuz.
b) Onlarla müvəqqəti dostluq edirsiniz.
c) Adamlardan asılı olaraq bəziləri ilə dostsunuz, bəziləri ilə yox.
d) Çox nadir hallarda sinif yoldaşlarınızla dostluq edirsiniz.
e) Heç vaxt heç kimlə dostluq etmirsiniz.

Bu sualda maraqlı cəhət diqqətimizi çəkir ki, şagirdlər özlərini başqalarının gözü ilə qiymətləndirsələr də, əslində birbaşa olaraq 30%-i özünü əsl dost kimi qiymətləndirdiklərinin şahidi oluruq. 9,3% yeniyetmə dostlarının onu müvəqqəti dostluq münasibəti saxlayan kimi tanıyır deyə cavablandırmışdır. Şagirdlərin 48% - i belə hesab edir ki, bəziləri ilə dostdurlar, bəziləri ilə yox. Yəni seçici münasibət bəsləyirlər. İştirakçıların 8,7% - i isə çox nadir hallarda sinif yoldaşları ilə dostluq etdiklərini bildirmişdir. Həhayət 4% yeniyetmə heç vaxt heç kimlə dostluq etməyənlər kimi qiymətləndirilmişdir.

Yeniyetmələrdən aldığımız cavablar bizə bir daha əsas verdi ki, digər bir sualı təhlil edərək və onların dostluq meyarlarının, gözləmələrinin necə olmasını araşdıraq. Bu məqsədlə testin digər bir, - Sizcə əsl dost necə olmalıdır? sualı üzrə qiymətləndirmə apardıq. Cavablara diqqət etsək görərik ki, sorğuda iştirak edən yeniyetmələrin 18,7% -i "dinləməyi bacaran", 30% - i "dərdinə şərik olan", 32% - i "onunla danışmaq sizə xoş olmalıdır", 9,3% -i "sizin tərəfinizdə olmalıdır", 10% yeniyetmə isə "həmişə sizə kömək etməlidir" variantını seçmişlər.

Cavabların təhlili göstərdi ki, "onunla danışmaq sizə xoş olmalıdır" variantı daha çox yeniyetmə tərəfindən birinci yerdə qiymətləndirilmişdir. Halbuki, "dərdinizə şərik olan", "dinləməyi bacaran" kimi keyfiyyətləri də əsl dosta aid hesab etmək olardı. Bu fakt onu göstərir ki, rəyi soruşulanlar daha çox ünsiyyətdə emosional bağlılığa üstünlük vermişlər. Beləliklə dostluğu özünəməxsus inkişaf mərhələlərinə ayırmaq olar. Bu mərhələlərin hər birində əxlaqi münasibət forması olan dostluq və dostluq münasibətlərinə fərqli tələblər verilir. Bu tələbləri müəyyən istiqamətdə qruplaşdırmaqla, yeniyetmələrin dostluq haqqında fikirlərini üç qrupda birləşdirmək olar:

Birinci - dostluqda dürüstlük, təmizlik, etibar və sədaqət olmalıdır.

Yeniyetmələr deyir: "Dost odur ki, ona etibar edəsən", "Dost odur ki, ona özünə inanan kimi inanasan", "Dostluq qarşılıqlı dürüstlük və etibardır".

Dostluğu xarakterizə edən ikinci qrup keyfiyyət düzgünlük, səmimilik,

ürəyaçıqlıqdır. "Dost yaltaq olmamalıdır", "Dost ilə hər şey barədə məsləhətləşmək olar", "Dost həqiqəti üzə deməlidir", "Dost ürəyiaçıq olmalıdır".

Dostluğa verilən üçüncü qrup tələblərə - qayğıkeşlik, lazım olduqda köməyə, yardıma hazır olma və s. aiddir. Beləliklə, yeniyetmələrin dostlarına qarşı tənqidi yanaşma, onların nöqsanlarını görmə kimi xüsusiyyətləri də vurğulanmalıdır.

Dissertasiyanın III fəslinin üçüncü yarımfəsli **"Müasir dövrdə yeniyetmələrin dostluq münasibətlərində fərdi xüsusiyyətlərin nəzərə alınması imkanları"** adlanır. Bu yarımfəsildə yeniyetməlik yaş dövründə dostluq və yoldaşlığın müasir dövr üçün xarakterik olan cəhətləri göstərilmişdir. Bununla yanaşı yeniyetmə davranış və münasibətlərinə müsbət təsir göstərən dostluq formaları ilə yanaşı müasir dövr üçün aktual və qaçılmaz olan sosial şəbəkələr vasitəsilə qurulan dostluq münasibətlərinin mənfi nəticələri göstərilmişdir. Yeniyetmələrin dostluq və yoldaşlıq münasibətlərinin formalaşmasında rolu olan bir sıra fərdi fərqlər mövcuddur ki, onlar sorğuda iştirak edən yeniyetmələrin cavab nümunələri və disskusiyalar əsasında təhlili bu yarımfəsildə öz əksini tapmışdır.

Apardığımız tədqiqat və elmi ədəbiyyatın nəzəri təhlili aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

- Aparılmış tədqiqat göstərdi ki, əxlaqi hisslər insanın özünün və başqalarının davranışına emosional münasibətidir. Hər bir insanın əxlaqi hissləri də məzmun baxımından həyat şəraitindən asılı olaraq fərqli xüsusiyyətə malikdir.

- Tədqiqat göstərdi ki, yeniyetməlik yaş dövründə istər sosial, istər psixoloji, istərsə də fiziki inkişaf planında əsaslı dəyişikliklər nəzərə çarpır ki, onların hər biri yeniyetmələrdə əxlaqi hisslərin təşəkkülünə, inkişafına bu və ya digər istiqamətdə təsir etməyə bilməz.

- Müəyyən edildi ki, yeniyetmələrin ünsiyyət dairəsini genişləndirmək, onların tədricən yoldaşlıq münasibətlərinin dərinləşməsinə səbəb olar. Belə ünsiyyət zamanı yeniyetmələr biri - birini daha yaxından tanıyır, onların biri - birinə bağlılığı, hörməti, simpatiya və qayğısı, eləcə də diqqəti də artır ki, bunun da əxlaqi cəhətdən böyük əhəmiyyəti vardır.

- Tədqiqat göstərdi ki, ünsiyyətin və birgə fəaliyyətin məzmunlu və çoxcəhətli olması, bir çox məsələlər haqqında fikir birliyinin olması, dostluğu möhkəmləndirir. Əksinə dostluq keçəri, təsadüfi şeylərə, qeyri sabit maraqlara əsaslanırsa zəifləyir və pozulur. Dostluğun dinamik, iyerarxik xarakter daşıdığı fikrini vurğulamaq vacibdir.

- Tədqiqat zamanı məlum oldu ki, müəllimlər də şagirdlərin yoldaşlıq

və dostluq münasibətlərini bilməli, dostluqda baş verən dəyişiklikləri düzgün qiymətləndirməlidir. Bu yolla əldə edilən biliklər müəllimə tərbiyə işini daha konkret şəkildə təşkil etməyə, yeniyetmələrə daha konkret təsir göstərməyə imkan verər.

- Aydın oldu ki, əxlaqi davranışın, dostluq münasibətlərinin inkişafında yalnız yaş deyil, həm də cins planında müəyyən fərqlər mövcuddur. Bu fərqlər yalnız üstünlük təşkil edən münasibət tipinə görə deyil, həm də dostluğa verilən tələblərdə özünü biruzə verir. Qızlar emosional tipli münasibətlərə üstünlük verdiyi halda, oğlanlar daha çox işgüzar tipli münasibətləri ön plana çəkirlər. Oğlanlarla müqayisədə qızlar dostun həmrəy, həssas olması ilə bağlı tələblərə xüsusi önəm verirlər.

Tədqiqat nəticələri aşağıdakı tövsiyələrin irəli sürülməsinə imkan verir:

- Yeniyetmələrdə əxlaqi hisslər, dostluq, yoldaşlıq hisslərinin müsbət iyerarxiyası üçün ailə, məktəb və yeniyetmələrlə birgə əməkdaşlıq yaratmaq.

- Yeniyetmələrdə yaşlılıq hissindən asılı olaraq zamana uyğun dəyişən davranış xüsusiyyətlərini, şəxsiyyətlərarası qarşılıqlı münasibətlərini istiqamətləndirmək məqsədilə valideyn və müəllimlərlə vaxtaşırı olaraq seminarlar təşkil etmək.

- Yeniyetmələrin fərdi-psixoloji xüsusiyyətlərini öyrənmək, qarşılıqlı münasibətləri zamanı müsbət davranış modelləri haqqında təsəvvürlərin öyrədilməsi üçün məktəb psixoloqları tərəfindən göstərilən mövzuda dərslərin təşkil olunması.

Dissertasiyanın əsas müddəaları **müəllifin** aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır.


1. Yeniyetmələrin dostluq münasibətlərində fərdi xüsusiyyətlərin nəzərə alınması / Müasir elm XXI əsrin astanasında magistrant və tələbələrin elmi-praktik konfransının materialları. Bakı: 2000, s. 29-30.
2. Yeniyetmələrdə sərvət meylinin təşəkkülünün psixoloji məsələləri// “Bilgi” dərgisi. Təhsil, mədəniyyət, incəsənət seriyası. Azərbaycan Respublikası “Təhsil” cəmiyyəti. Bakı, 2000, s. 69-72.
3. Oğlan və qızlarda dostluq hissinin təzahür xüsusiyyətləri / Müasir elm XXI əsrin astanasında: problemlər, perspektivlər mövzusunda elmi-praktik konfransın materialları. Bakı: 2000, s. 41-42.
4. Emosional münasibətlərin təzahür xüsusiyyətləri / Respublika gününə həsr olunmuş “Azərbaycanın müasir sosial-fəlsəfi əsasları” mövzusunda elmi-praktik konfransının materialları. Bakı: 2001, s. 60-61.
5. Ünsiyyət yeniyetməlik yaşı dövründə qarşılıqlı münasibətin forması kimi / “Müstəqillik yollarında” problemlər, perspektivlər mövzusunda

elmi-praktik konfransın materialları. Bakı: 2004, s. 97-98.

6. Yeniyetmələrin qarşılıqlı münasibətləri və onun təzahür xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2008, №1, s. 111-129.

7. Yeniyetmələrdə dostluğun yaranması və formalaşması xüsusiyyətləri// Psixologiya jurnalı, Bakı, 2010, №4, s. 45-52.

8. Дружеские отношения между подростками как форма нравственных отношений // Введение Поиск, Казахстана, 2012, №3, с. 292-296.

9. Yeniyetmələrin dostluq və dostun şəxsiyyəti haqqında təsəvvürləri/ Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransı. Bakı: 2015, s. 234-236.

10. Yeniyetmələrin dostluğunda yaş xüsusiyyətlərinin nəzərə alınması// BDU-nun İlahiyyat fakultəsinin Elmi məcmuəsi, Bakı, 2015, №24, s. 297-305.

11. Характер современных нравственных взаимоотношений подростков // Азимут научных исследований. Педагогика и психология, Тольятти, 2016, с. 151-154.

12. Yeniyetmələrdə əxlaqi hisslərin inkişafının öyrənilməsi yolları // Psixologiya jurnalı, Bakı, 2016, №4, s. 45-57.

13. Ранние формы проявления нравственных чувств и направления их формирования в поведении подростков // Науковий Высник Херсонського Державного Университету, серия Психологичнi науки, Xerson, 2017, Впуск 1, с.69-77 .

*Арзу Алисакит kызы Джабраилова*

## Психологические особенности развития нравственных чувств у подростков

Диссертационная работа посвящена одной из актуальных проблем современности - изучению психологических особенностей развития нравственных чувств у подростков, особенностей эмоциональных отношений в этом возрасте (дружба, товарищество, симпатия, антипатия и др.), их роли в подростковом периоде, а также зависимости от возраста и индивидуальных особенностей.

Исследование состоит из введения, трех глав, девяти параграфов, заключения, рекомендаций, а также списка использованной литературы и приложений.

**Во введении** обосновываются актуальность и степень изученности темы, объект, предмет, цель и задачи, гипотеза, методологическая основа, научная новизна, научно-теоретическое и практическое значение исследования, положения, выносимые на защиту, апробация.

В первой главе диссертации **«Психологические особенности развития нравственных чувств у подростков как объект психологического исследования»** анализируются выделенные отечественными и зарубежными философами и психологами проблемы личности, возрастные и индивидуально-психологические особенности подростка, а также теоретические взгляды на эти вопросы. В ходе анализа этих исследований были подробно прокомментированы ранние формы проявления и направления формирования данной проблемы. Различные методы и средства, связанные с изучением нравственных чувств, после тщательного анализа были рассмотрены в русле сравнительных исследований.

Во второй главе диссертации **«Роль эмоционально-этических отношений подростков в проявлении их нравственных чувств»** опираясь на мнения различных исследователей, дается подробная интерпретация понятия «эмоциональные отношения». Далее проводится анализ роли этого понятия в проявлении нравственных чувств подростков. Здесь дается психологическая оценка дружеским отношениям, появляющимся в процессе углубления товарищеских

отношений, и расценивающимся как форма проявления нравственных чувств.

В третьей главе **«Особенности зарождения и формирования дружеских отношений как формы нравственных чувств»** нашли свое отражение характерные особенности этих отношений у подростков. Здесь, на основе эмпирических исследований, экспериментально исследуются представления подростков о дружбе, личности друга, анализируются возможности учета индивидуальных особенностей в дружеских отношениях на современном этапе.

**В Заключении** диссертации обобщаются выводы исследования. Здесь, в частности, подчеркивается, что без знания возрастных и индивидуальных особенностей подростков невозможно серьезно заниматься воспитанием их нравственных чувств, в том числе дружественных отношений. Диссертационная работа имеет научно-теоретическую и практическую значимость; полученные в ходе исследования результаты могут быть применены в исследованиях проблемы формирования личности подростка, а также в лекционных курсах по психологии развития и возрастной психологии.

*Arzu Alisakit gizi Jabrailova*

**Psichological features of development of moral feelings at teenagers**
**SUMMARY**

The thesis is devoted to studying of psychological features of development of moral feelings at teenagers, features of emotional relations at this age (friendship, association, liking, an antipathy, etc.), their roles in the teenage period, and also dependence on age and specific features as one of actual problems of the modernity.

The research consists of the introduction, three chapters, nine paragraphs, the conclusion, recommendations, and also the list of the used literature and appendices.

In the Introduction are justified the actuality and degree of the study of the theme, an object, a subject, the purpose and problems, a hypothesis, a methodological basis, scientific novelty, scientific-theoretical and practical value of research, the positions which are taken out on protection, and approbation are proved.

In the first dissertation chapter **«Psychological features of development of moral feelings at teenagers as the object of psychological research»** are analyzed of a problem of the person, age and individually-psychological features of teenager, and also theoretical sights at these questions allocated with domestic both foreign philosophers and psychologists. During the analysis of these researches have been in detailly commented early forms of display and directions of formation of the given problem. Various methods and the means connected with studying of moral feelings, after the full analysis have been considered in the tideway of comparative researches.

In the second chapter of the dissertation **«The role of emotionally ethical relations of teenagers in display of their moral feelings»,** leaning against opinions of various researchers, is given detailed interpretation of «emotional relations» concept. Further, the analysis of a role of this concept of display of moral feelings of teenagers is carried out. Here the psychological estimation is given to the friendly relations appearing in the course of deepening of companionable relations, and regarded as the form of display of moral feelings.

In the third chapter, **«Features of origin and formation of friendly**

**relations as a form of moral feelings»** have found the reflexion prominent features of these relations at teenagers. Here, based on empirical researches, are experimentally investigated teenager's representations about friendship, person of the friend, and are analyzed possibilities of the account of specific features in friendly relations at the modernity.

In the **Conclusion** part are generalized results of the research. Here, in particular, it is underlined, that without knowledge on age and specific features of teenagers it is impossible to be seriously engaged in education of their moral feelings, including friendship. Dissertational work has the scientific-theoretical and practical importance; the results received during research can be applied in researches of formation of the teenager person problem, and also in lecture courses on psychology of development and age psychology.

Sifariş № 109, tiraj 100

“Ecoprint” mətbəəsində çap olunub.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Арзу Алисакит гызы Джабраилова**

# Психологические особенности развития нравственных чувств у подростков

**6104.01 –Педагогическая психология**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по психологии**

**Баку – 2017**